# XIX əsr Azərbaycan ədəbiyyatı və incəsənətinin intibah dövrü



**Mürsəl İrəvanlı,**
Yazıçı-publisist,
M. Qorki adına
Beynəlxalq
mükafat laureatı
Gəncə şəhəri

**III yazı**

(əvvəli ötən sayımızda)

***70-ci illərdən başlayaraq dramaturgiya, nəsr və şeir sahələrində Axundov ənənələrini davam və inkişaf etdirən bir sıra yazıçılar yetişdi. Bu ənənələrin şeir sahəsində davamçısı S.Ə.Şirvani, dramaturgiya sahəsində isə N.Vəzirov oldu. S.Ə.Şirvani M.F.Axundovun məfkurə silahdaşı, maarifçilik və publisistika sahələrində köməkçisi olan H.Zərdabi ilə yaxından tanış və dost idi. O, H.Zərdabinin və "Əkinçi"nin köməyilə qabaqcıl ideyalarla silahlanaraq bir maarifçi kimi yetişdikdən sonra müasir mövzulara keçdi və tənqidi realizmə yiyələndi.***

70-ci illərin birinci yarısında H.Vəzirovun simasında M.F.Axundovun dramaturgiya sahəsində birinci xələfi yetişdi. Böyük sələfinin əsərlərindən ilham alan gənc yazar ən yaxşı əsərlərilə Azərbaycan dramaturgiyasını yeni müsbət xüsusiyyətlərlə zənginləşdirdi. O, real həyatdan götürülmüş bir sıra surət və xarakterlər yaratdı, "Müsibəti-Fəxrəddin" əsərilə Azərbaycan ədəbiyyatında faciə janrının əsas bünövrəsini qoydu. N.Vəzirovun dramaturgiyası ictimai həyatla, xalq hərəkatı ilə üzvü surətdə bağlıdır.

> ***N.Vəzirovun ardınca Rəşid bəy Əfəndiyev, Ə.Haqverdiyev, Nəriman Nərimanov, Süleyman Sani Axundov, Eynəli Sultanov, Ələsgərbəy Adıgözəlov və başqalarının simasında yeni dramaturqlar nəsli yetişdi. N.Nərimanov "Nadir şah" əsərilə tarixi dramın əsasını yaratdı. Rəşid bəy Əfəndiyev Qori seminariyası məzunlarından idi. Seminariyanı başa vurduqdan sonra uzun illər müəllim işləmiş, uşaqlar üçün "Bəsirətul-ətfal" və s. dərsliklər tərtib etmiş, bir sıra didaktik şeirlər və dram əsərləri yazmış, rus klassiklərindən tərcümələr etmişdir***

> ***Böyük inqilabçı demokrat Cəlil Məmmədquluzadənin (1866-1932) ilk yaradıcılıq dövründə 90-cı illərdə təsadüf edir. Onun "Çay dəzgahı" (1889), "Kişmiş oyunu" (1892) və məşhur "Danabaş kəndinin əhvalatları" (1894). Azərbaycan realist nəsrinin tarixində mühüm yer tutan bu povestində C.Məmmədquluzadə çar hökuməti dövründəki Azərbaycan kəndini, yoxsul kəndlilərin vəhşicəsinə əzildiyini, qadın hüququnun tapdalandığını, mollaların fırıldağını, avamlıq və mövhumatın hökm sürdüyünü əks etdirmişdir. Ədibin realizmi qüvvətli, tənqidi kəskindir. C.Məmmədquluzadənin əsərləri ilə satirik nəsr yeni bir dövrə daxil olur***



N.Vəzirovun ardınca Rəşid bəy Əfəndiyev, Ə.Haqverdiyev, Nəriman Nərimanov, Süleyman Sani Axundov, Eynəli Sultanov, Ələsgərbəy Adıgözəlov və başqalarının simasında yeni dramaturqlar nəsli yetişdi. N.Nərimanov "Nadir şah" əsərilə tarixi dramın əsasını yaratdı. Rəşid bəy Əfəndiyev Qori seminariyası məzunlarından idi. Seminariyanı başa vurduqdan sonra uzun illər müəllim işləmiş, uşaqlar üçün "Bəsirətul-ətfal" və s. dərsliklər tərtib etmiş, bir sıra didaktik şeirlər və dram əsərləri yazmış, rus klassiklərindən tərcümələr etmişdir. Ortaya qoyulmuş əsərlərdən hiss olunur ki, onun yaradıcılığına M.F.Axundovun böyük təsiri olmuşdur. Müəllifin ən sanballı dram əsəri beş pərdəli "Qan ocağı" (1880) komediyası idi. Rəşid Əfəndiyevin "Qonşu qonşu olsa kor qız da ərə gedər", "Tiflis səfərləri", "Saqqalın kəraməti", "Diş ağrısı", "Qızıl gül", "Pul dəlisi" kimi pyesləri də vardır. Bu əsərlərin əsas mövzusu köhnə həyatla mübarizədir. Dramaturji yaradıcılığa hələ 1873-cü ildə başlamış N.Vəzirov 15 illik fasilədən sonra təkrar bu sahəyə qayıtmışdır. Əsgərbəy Adıgözəlov Goraninin "Qocalıqda yorğalıq" (1892) komediyası, Ə.Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892) komediyası və "Dağılan tifaq" (1896) faciəsi, N.Nərimanovun "Nadanlıq" (1891) və "Nadir şah" (1892) dramları bu illərdə yazılmışdı.

Bu dövrün ədəbiyyatında diqqəti cəlb edən simalardan biri Əsgərbəy Gorani idi. "Qarabağnamə" əsərinin müəllifi Mirzə Adıgözəlbəyin nəslindən olan Ə.Gorani N.Vəzirovla bir yerdə əvvəl Bakıda "Real gimnaziya"da, sonra isə Moskvada "Petrovsko-Razumovskaya akademiya"da oxumuş və ali təhsilini də onunla bir yerdə qurtarmışdı. "Əkinçi" qəzetində çap olunmuş elmi-kütləvi məqalələri onu dövrünün istedadlı publisistlərindən biri kimi tanıtmaqdadır. Ə.Goraninin dram əsərləri də vardır ki, bunlardan bu vaxta qədər ancaq "Qocalıqda yorğalıq" əsəri məlumdur. "Qocalıqda yorğalıq" vodevil xarakterli bir pərdəli komediyadır. Köhnə məişət, qadın hüquqsuzluğu, mövhumat və cadugarlıq əleyhinə yazılmış bu əsərin qəhrəmanı Ları Zaman altmış yaşlı xəsis bir dükançıdır. O, qoca yaşlarında on yeddi yaşlı Sonaya aşiq olur və onu cadu vasitəsilə sevgilisi Ziyaddan ayırıb almaq istəyir. "Küpəgirən qarı" Fatma və cadugar Molla Hadi fürsətdən istifadə edərək onu soyurlar.

Qız isə öz istəklisinə qoşulub aradan çıxır. Pyes qoca xəsisin aşağıdakı monoloqu ilə sona çatır: "Qız əlimdən getdi... qızıllarım getdi, özüm biabır oldum. Bu nə eşqbazlıq idi qoca vaxtı? Bu nə yorğalıqdı qoca vaxtı? Zalım qocalıq, zalım qocalıq!"

(Bax: Əsgər bəy Gorani. Qocalıqda yorğalıq, Tiflis, 1892, səh. 30)

Böyük inqilabçı demokrat Cəlil Məmmədquluzadənin (1866-1932) ilk yaradıcılıq dövründə 90-cı illərdə təsadüf edir. Onun "Çay dəzgahı" (1889), "Kişmiş oyunu" (1892) və məşhur "Danabaş kəndinin əhvalatları" (1894). Azərbaycan realist nəsrinin tarixində mühüm yer tutan bu povestində C.Məmmədquluzadə çar hökuməti dövründəki Azərbaycan kəndini, yoxsul kəndlilərin vəhşicəsinə əzildiyini, qadın hüququnun tapdalandığını, mollaların fırıldağını, avamlıq və mövhumatın hökm sürdüyünü əks etdirmişdir. Ədibin realizmi qüvvətli, tənqidi kəskindir.

C.Məmmədquluzadənin əsərləri ilə satirik nəsr yeni bir dövrə daxil olur.

***Beləliklə də XIX əsr boyu Azərbaycan ədəbiyyatı realizm yolu ilə inkişaf edərək məzmun və formaca çox zənginləşdi. Əsrin axırlarında bu realizm daha geniş yayılaraq Güney Azərbaycan ədəbiyyatına da müsbət təsir göstərir; Maracalı Zeynalabdin (1837-1910), Əbdürrəhim Talıbov (1855-1910), Molla Məmmədbağır Xalxali və başqalarından ibarət realist yazıçıların yetişməsində mühüm rol oynadı. Mirzə Mehdi Şukuhi, Mirzə Əli xan Ləli, Sərraf və Güney Azərbaycanın başqa şairlərinin satirik şeirləri də realist əsərlərdir ki, bunların meydana gəlməsində M.F.Axundov ədəbi məktəbinin müəyyən təsiri vardır.***

**(ardı var)**